Səh. 2 Plasebo effekti – Azər Musaoğlu

Səh. 5 Qeyri-stereotiplər: feminist pedaqoqlar – Çiyalə Osmanova

Səh. 5 Moda – yaralı yerimiz – Aytən Fətullayeva

Səh. 6 Parlaq Gələcək Gənclər Mərkəzi – Leyla Yusifova

Səh. 3 Ölüm adlı gerçək – Afiq Muxtaroğlu

Səh. 4 ERKƏN NİKAHA GÖRƏ 38 MƏKTƏBLİ TƏHSİLİNİ YARIMÇIQ QOYUB

Səh. 7 Gülüşün estetikası – Elizbar Cavelidze



İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 APREL
2024-CÜ İL
№ 08 (203)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.


## TÜRKİYƏ VƏ GÜRCÜSTAN RƏSMİLƏRİ REGİONAL PROBLEMLƏRİ MÜZAKİRƏ EDİBLƏR



Türkiyə Böyük Millət Məclisinin milli müdafiə komitəsinin sədri Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstanda səfərdə olub. Səfər çərçivəsində Hulusi Akarın rəhbərlik etdiyi nümayəndə heyəti aprelin 16-da Gürcüstan parlamentinin sədri Şalva Papuaşvili ilə görüşüb.

Görüşdə iki ölkə arasında parlamentlərarası münasibətlərin inkişaf perspektivləri diqqət mərkəzində olub. Eyni zamanda siyasi, iqtisadi, hərbi və humanitar sahələrdə əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb. Tərəflər “Orta Dəhliz”in inkişafı, həmçinin Türkiyə-Gürcüstan strateji tərəfdaşlıq əlaqələri ilə bağlı məsələləri nəzərdən keçiriblər.

Şalva Papuaşvili Türkiyənin hər zaman Gürcüstanın yanında olduğunu, ərazi bütövlüyü və suverenliyini dəstəklədiyini bildirib və buna görə təşəkkür edib. Hulusi Akar hər iki ölkədə, həmçinin regionda təhlükəsizlik və firavanlığın önəminə diqqət çəkib.

Tərəflər Azərbaycan və Ermənistan arasında sülh sazişinə nail olunmasının, Türkiyə-Ermənistan əlaqələrinin inkişafının əhəmiyyətini də vurğulayıblar. Bu işdə parlament diplomatiyasının rolu xüsusi qeyd olunub.

Nümayəndə heyəti həmçinin müdafiə naziri İrakli Çikovani ilə görüşüb. Görüşdə ikitərəfli hərbi əməkdaşlıq məsələlərinə toxunulub.

İrakli Çikovani Gürcüstan və Türkiyə arasında səmərəli əməkdaşlığın regional sülh və sabitlik üçün əsas şərt olduğunu vurğulayıb. Bu kontekstdə strateji əməkdaşlığın önəmi xüsusi qeyd olunub.



Söhbət zamanı tərəflər həmçinin Azərbaycan, Türkiyə və Gürcüstan arasında üçtərəfli hərbi əməkdaşlığa dair fikir mübadiləsi aparıblar. Qeyd edilib ki, bu əməkdaşlıqdan məqsəd regional təhlükəsizliyi gücləndirməkdir.

İrakli Çikovani 2024-cü ildə Tbilisinin Azərbaycan-Türkiyə-Gürcüstan müdafiə nazirlərinin görüşünə ev sahibliyi edəcəyini diqqətə çatdırıb.

## AVROPA PARLAMENTİ GÜRCÜSTANLA BAĞLI QƏTNAMƏ QƏBUL EDİB



Avropa Parlamenti (AP) Gürcüstanın hakim “Gürcü Arzusu-Demokratik Gürcüstan” partiyasının parlamentə təqdim etdiyi “Xarici təsirin şəffaflığı haqqında” qanun layihəsi ilə bağlı qətnamə qəbul edib.

AP-nin 425 deputatı qətnamənin lehinə, 25-i əleyhinə səs verib, 30 deputat isə bitərəf qalıb.

Gürcüstan mediası vurğulayır ki, “Xarici təsirin şəffaflığı” haqqında qanun layihəsi Avropa İttifaqının dəyərlərinə və demokratik prinsiplərinə ziddir. Eyni zamanda, Gürcüstanın Aİ-yə üzvlük ambisiyalarına zidd olan qanun layihəsi onun beynəlxalq reputasiyasına xələl gətirir və ölkənin Avro-Atlantik məkana inteqrasiya istəklərini təhdid edir.

KİV-in məlumatına görə, Avropa Parlamentinin qəbul etdiyi qətnamədə bu və digər məsələlərlə yanaşı, Gürcüstanla vizasız səyahət rejiminə yenidən baxılması və Bidzina İvanişviliyə qarşı sanksiyaların tətbiq edilməsi tələbi də yer alır.

Həmçinin NATO “xarici agentlər” qanununun Gürcüstan parlamentinin birinci oxunuşundan keçməsindən narahatdır. Bu barədə NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavier Kolomina “X” platformasındakı paylaşımında bildirib.

“NATO Tbilisidə birinci oxunuşdan keçən qanun layihəsindən narahatdır. NATO namizədi olaraq Gürcüstan üçün əsas məsələ media azadlığını və vətəndaş cəmiyyətinin iştirakını təmin etmək üçün düzgün çərçivəyə malik olmaqdır. Bu qanun layihəsi geriyə doğru bir addımdır və Gürcüstanın Avro-Atlantik inteqrasiyasını irəli aparmır”, – deyə Kolomina qeyd edib.

## PREZİDENT: “XARİCİ TƏSİR” QANUNU Aİ-YƏ ÜZVLÜK DANIŞIQLARINA BAŞLANILMASININ QARŞISINI ALMAQ ÜÇÜNDÜR



Gürcüstanın bu ilin sonunda Avropa İttifaqına (Aİ) üzvlük danışıqlarına başlamaq perspektivi var və “xarici təsir” qanunu məhz buna qarşı mübarizə aparır. Bunu Gürcüstan Prezidenti Salome Zurabişvili Fransa telekanalına müsahibəsində deyib.

O, qanun layihəsinin Moskvanın maraqlarına cavab verdiyini, hakim partiyanın ölkənin Avropa İttifaqı yoluna zidd olan bir sıra digər qanunlar da qəbul etdiyini qeyd edib.

“Bu qanun Rusiya yönümlü qanun deyil, Rusiya qanunudur. Bu Prezident Putin tərəfindən qəbul edilmiş qanunun eynisidir”, – Zurabişvili deyib.

Prezident bu il oktyabrın 26-da keçiriləcək parlament seçkilərinin ölkənin Avropa gələcəyi üçün həlledici olacağını qeyd edib.



# PLASEBO EFFEKTİ

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

Bir neçə il öncə Türkiyədə ət anbarında işləyən fəhlələrdən ikisi qapının qəfil bağlanması nəticəsində soyuducu otaqda qalırlar. Səhəri gün onları tapanda hər ikisinin donaraq öldüyünü görürlər. Hətta meyitlərin üz və əllərinin dərisində donvurma əlamətləri də olur. Bu hadisənin maraqlı tərəfi ondan ibarətdir ki, fəhlələr soyuducuda qalan gün soyuducu işləməmişdi, yəni otaqda temperatur normal imiş...

Elmdə buna plasebo effekti deyilir. Yəni psixoloji təsir nəticəsində fizioloji dəyişmə. Tibbdə plasebo effektindən daha çox müsbət müalicəvi nəticələr əldə etmək üçün istifadə olunsa da, onun nosebo effekti deyilən əks, mənfi nəticələr verən təsiri də mövcuddur. Heç bir tibbi, kimyəvi tərkibi olmayan, çox vaxt sadəcə şəkərdən ibarət olan plasebo – yalançı həblər vasitəsilə müxtəlif xəstəliklərin sağaldığını, xəstələrdə müsbət nəticə əldə edildiyini göstərən xeyli statistika mövcuddur. Özünüz internetdən axtarıb tapa bilərsiniz. Plaseboya təlqin həbləri də demək olar. Yəni insan özünütəlqin ilə, beynin imkanlarına fikirlə, şüurla, düşüncə ilə psixoloji təsir etməklə ağır xəstəliyini də müalicə edə bilər, uğura da nail ola bilər və s. Qısa olaraq belə deyək, düşüncənizlə taleyinizi redaktə edə bilərsiniz.

İndi gəlin təsəvvür edək ki, Gürcüstan ət anbarıdır, biz də bu anbarda işləyən fəhlələr. Və bir gün qapının qəfil bağlanması nəticəsində hamımız qalırıq soyuducu otaqda...

Anbarın qapısı bağlansa, soyuducunun işləməməsinə baxmayaraq yenə də sakitcə donub öləsiyik. Nə qapını sındırmağa, nə də qışqırmağa cəhd belə etməyəcəyik. Çünki gözümüz görüb, qulağımız eşidən vaxtdan ailədən, məktəbdən, cəmiyyətdən bizə təlqin olunub ki, bizim səsimiz, sözümüz onsuz da eşidilməyəcək, dinlənilməyəcək, heç vaxt tamhüquqlu vətəndaş ola bilməyəcəyik, burada uğur qazana bilməyəcəyik, yaşadığımız şəhərin meri ola bilməyəcəyik, ölkənin naziri ola bilməyəcəyik, prezidenti ola bilməyəcəyik və sair və ilaxır. Bilirəm, indi bu cümlələri oxuyub gülənlər də az olmayacaq. Nə vaxta kimi ki bunlara inamımız olmayacaq, məqsədimiz, hədəfimiz olmayacaq, güləcəyik, elə olduğumuz yerdəcə fırlanacağıq.

Bizimçün ən böyük məqsəd, amal, uğur uşaqlarımızı evləndirmək, nəvə-nəticə sahibi olmaq, yaxşı cehiz vermək, yaxşı toy etmək, qonşunun evindən hündür ev tikdirməkdən ibarətdir. Biz uşaqlarımızı mer, nazir, prezident kimi görməmişik heç vaxt, buna inanmamışıq (söhbətin marionet merlərə, deputatlara aidiyyatı yoxdur). Universitetə də başqasından dala qalmamaq üçün göndərmişik uşaqlarımızı. Təlqin eləmişik ki, pulun varsa adamsan, pulun yoxursa istəyir yeddi diplomun olsun, cudamsan. Başqalarından dala qalmasın deyə dəridən-qabıqdan çıxıb diplom almasına nail olmuşuq uşqlarımızın, amma şair, yazıçı, rəssam, aktyor, rejissor olmaqdansa alverçi olmağını istəmişik, arzulamışıq, təki əli pul tanısın, cibi pullu olsun. Heç vaxt uşağımızın şair, yazıçı, aktyor, rejissor kimi uğur qazanacağına (oxu: pul qazanacağına) inanmamışıq; mer, nazir, prezident ola biləcəyinə həmişə gülmüşük. Gözümüz həmişə anbarın qapısında (oxu: ölkənin sərhəddində) olub. Təlqin eləmişik ki, anbarın qapısı bağlandımı donub öləsiyik. Vətəndə özümüzü qürbətdəki kimi, qərib kimi hiss etmişik, aparmışıq; natamamlıq, özünü bəyənməmək kompleksi, yadlıq kompleksi, ikincidərəcəlilik kompleksi ilə böyüdülmüşük və yaşayırıq. Bunların bir səbəbi də özümüzü yaxşı tanımamağımızdandır, tariximizi bilməməyimizdəndir, mədəniyyətimizi öyrənib, öyrədib, ötürməməyimizdəndir...

Plasebo effektinin müsbət nəticə verməsi üçün əvvəlcə düşüncəmizi dəyişməliyik, gələcəyə münasibətdə nikbin olmalıyıq, inanmalıyıq; inanmalıyıq ki, səsimizi çıxarsaq bizim də səsimiz eşidilə, nəyisə həll edə bilər, biz də öz vətənimizin tamhüquqlu vətəndaşları ola bilərik, olmalıyıq da, biz də yaşadığımız şəhərin meri (forMAL yox!), ölkənin naziri, prezidenti ola bilərik, olmalıyıq da, özümüzü yad, ikincidərəcəli aparmamalıyıq, buna zəmin yaratmamalıyıq. Anbarın qapısı bağlanır, cəhənnəmə ki bağlansın, onsuz da soyuducu işləmir, lap işləsə belə bir-birimizə sığınaraq, bir-birimizi isidərək sağ qalacağımıza inanmalıyıq, gücümüzü bir yerə toplasaq qapının təpiyimizin zərbəsinə açılacağına inanmalıyıq, hərəkət etməliyik, kor-koranə oturub soyuğun bizi dondurub öldürəcəyini gözləməməliyik...

Çoxumuz dərman qəbul etməmişdən qabaq qutudan çıxan təlimatları oxuyuruq. Təlimatda dərmanın faydaları ilə yanaşı yan təsirləri də qeyd olunur. Dərmanın bizə təsiri hansına daha çox diqqət yetirməyimizdən, inanmağımızdan asılıdır: faydalarına, yoxsa yan təsirlərinə...

İndi gəlin yenə təsəvvür edək ki, Gürcüstan ət anbarıdır, biz də bu anbarda işləyən fəhlələrik. Və bir gün qapının qəfil bağlanması nəticəsində hamımız qalırıq soyuducu otaqda... Sizcə, soyuducu işləyir?

# UŞAQLIĞINI YAŞAMAYAN UŞAQLAR



Yəqin "Şərikli çörək" filmindən Vasif Adıgözəlovun bəstəsinə Oqtay Ağayevin "Sən, ey uşaqlıq" mahnısını həssas insanlar dəfələrlə dinləyib və kövrəlib. Kövrəlməmək mümkündürmü?!.

Ömrümüz bir uca dağa bənzəyir, yamacdan dayanıb baxarkən çox uca görünür, elə ki zirvəyə çatdıq eniş çox sürətli olur. Yamac uşaqlıqdır, yoxuş yarı yaşa qədər çabalamaq, eniş isə yarı yaşdan sonra sürətli dönüş və son. Yaşamadığımız günlərin sayı qədər uzun, həsrət qaldığımız zaman qədər qısa bir ömür...

Elə adam tanıyırsınızmı ki, uşaqlığı müqəddəs və şirin xatirə kimi yada salmasın. Ömür yolunun yamacı ən yaddaqalan xoş anlar olur, çünki tövşüyərək çıxdığımız və təntiyərək endiyimiz yolumuzun ən rahatı, qayğısızı, bəxtəvəri elə uşaqlıq dediyimiz o yamaclı ömrümüzdür. Orta yaşlı nəsil o yamacın nə olduğunu gözəl bilir. Bəs bugünkü uşaqlar uşaqlıq yaşayırlarmı? Yox, mən sosial şəbəkə problemindən danışmayacam, heç ona ictimai bəla da deməyəcəm, onu zamanın tələbatı kimi qəbul edirəm. Mənim səbəbim başqadır. Mən "xalx (kütlə) nə deyər" düşüncəsiylə yaşayan valideynlərin övladlarına yaşatdığı həyat tərzindən yazmaq istəyirəm.

Nə xoşbəxtik ki, dövlətimiz uşaqlarımıza təmənnasız təhsil verir, sağlıq və bəzi tələbatlarını ödəyir, amma biz nə edirik? – Bununla razılaşmırıq. Məktəbdə 6 saatlıq təhsillə kifayətlənmədən özümüzün hələ uşaqlıqdan ayarladığımız ali təhsil istiqamətiylə uşaqlarımızı xüsusi müəllimlə dərsdən sonra hazırlıqlara yollayırıq. Bu mərhələyə isə az qala uşaq 5 yaşında olanda başlayırıq. O uşaq yamacda qaçıb-tutmaq istəyərkən biz ona güclə məntiq öyrədirik – sünii məntiq. Özü yaranmağa imkan vermədən zorla yaratdığımız məntiq onsuz da məktəb proqramının məntiqsiz şəkildə lazımsız yüklədiyi uşaqları biz də yenidən yükləyirik. Təsəvvür edirsinizmi, gözünü ovaraq məktəbə gedən uşağa ağır proqram yüklənir, əlbəttə, uşaqlar qavrayır, qavramaya da bilməz, axı elə proqramlaşdırmışıq. Beyin tutumundan çox qəbul etdirirwww ik. Onsuz da qidalanma qeyri-sağam dayaq üzərindəndir. Evə yorğun qayıdan uşaqları təkrar hazırlıqlara yollayırıq. Yorğun zehinlə təkrar yüklənmə. Nə qədər dərin tutum olmalıdır ki, qavramağa əngəl olmasın. Bax, o tutumu lazımsız yükləmə ilə zamanla sıradan çıxarırıq, hansı ki, bu uşaq bu yaşda daha çox əyləncəyə vaxt ayırmalı, uşaqlığın dadını çıxarmalıdır.

Unutmayaq, bu onun sabahkı həyatında çox mühüm rol oynayacaq! Dərslərdən başı açılmayan uşaqlar uşaqlıq deyəndə nə xatırlayacaqlar? – Böyük ehtimalla dəftər-kitab, bir də müəllimlərin tələbini. Uşaq onsuz da hipnozdadır. Onlar mükəmməl surətdə öyrəndiklərinə sahib ola bilməzlər, olsalar da müvəqqəti, əzbərçilik yolu ilə yaranan yaddaşla, hansı ki, zehni yorğunluq böyük gələcəyə mane olacaq.

Həyatda iki vacib şərt sağlamlığın da, zehnin də, təfəkkürün də rəhnidir. Hansı ki, heç nə onu əvəz etmir, amma o bütün sağlamlıq düsturlarını əvəz edir. Bu, hərəkət və təmiz havadır. Bax, uşaqlığını yaşamağa qoymadığımız uşaqlar bu əvəzsiz nemətlərdən məhrumdurlar. Saatlarla qapalı otaqlarda oturaq zehni fəaliyyətdə olan uşaqlar gələcəkdə sağlamlıq problemləri də yaşayacaqlar.

Yəqin ki, statistika aparılsaydı biz millət olaraq diplom sayına görə mütləq öndə olardıq. Tanıdığım yüzlərlə insan var ki, heç o diplomdan istifadə etməyib. Ya istedadı yoxdur, ya da o diplom ona təkidlə aldırılıb. Necə deyərlər, cərgədən geridə qalmamaq üçün. Uşaq oxutmaq da bizdə bir ənənəyə çevrilib. Orta məktəb səviyyəsində savadı mükəmməl olan hər bir kəs mütləq savadlıdır. Hazırlıqlara gedən şagirdlər sinif dərsinə biganə olur, şagird sinifdəki müəllimdən çox xüsusi müəllimə diqqət göstərir. Etiraf edək ki, bu da müəllimə xoş deyil. Olmazmı ki, uşaqların gündəlik dərslərinə nəzarət edib müəllimdən də tələb edəsiniz. Bax, onda uşağın zamanı düz bölünəcək. Şagird dərsə də, özünə də zaman ayıracaq.

Gəlin birlikdə uşaqları uşaqlığı yaşamağa yönəldək. İcazə verin məhəllələrdən gələn uşaq səs-küyü havanı yarsın, pəncərələri toplar sındırsın, qızlar saçyoldusundan, oğlanlar təpikatdısından şikayət etsin. Bax, onda onlar da qocalanda qalxdıqları dağın enişinə gələndə xatırlayası yaşanmış uşaqlıqları olacaq.

Diplom şərti sənəddir. Balalarımıza insanlıq öyrədək, şərəf, ləyaqət aşılayaq. Qoy içimizdən həqiqi istedadlı uşaqlar elmli olsunlar. Onlar da ona layiqdirlərsə o yol özü onu aparacaq, necə ki, alimlərimizin heç biri o yola uşaqlığını itirərək getmədi, əksinə, qazanaraq getdi...

Hörmətli valideynlər, ali təhsil vacibdirmi? Axı o qədər gözəl sənətlər var ki. Uşaqları məcburi ali təhsilə yönəltməklə onların zamanını almaqla bərabər içindəki özü olacaq mənini də məhv edirsiniz. Ali təhsilli olmamaq savadsızlıq deyil, bunu qəbul edək. Orta təhsil bizə savadlı olmaq üçün kifayət edir. Ali təhsil kütləvi yox, seçilmişlərin olmalıdır. Digərləri üçün bu, itirilmiş zamandır. Uşaqlarımıza öz uşaqlığımızın gözü ilə baxaq.

**Esmira ƏLƏKBƏRLİ**
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# ÖLÜM ADLI GERÇƏK



Mən onda çox balaca idim. Cılız, arıquruq, şeytan şapalağı kimi bir şey idim. Heç yaşımın neçə olduğunu da bilmirdim. İnsanın yaşının üç, beş olmasının nə mahiyyət daşıdığını bilməyəcək qədər kiçik olduğumu anlatmaq istəyirəm. Düşünün ki, mənim kiçik dünyamda cəmi iki-üç adama ancaq yer var idi. Əslində, bundan artıq adamın, istəsəm də, o kiçik dünyaya yerləşməsi mümkün deyildi.

Mən sizə danışmaq istədiklərimi ordan-burdan verirəm. Elə bil sevdiyiniz filmi irəli-geri çəkər kimi seyr edirsiniz. Bunu sizi həyacanda saxlamaq xətrinə etmədiyimi də unutmayın.

Axşam tərəfi həyətdəki nəhəng tut ağacının kölgəsində sarı torpaq qalağı ilə oynamaqdan yorulmurdum. Kiçik təpəciklər, kiçik evciklər düzəldirdim. Nəmliyini saxlamış torpağın içərisinə əlimin birini soxub, digəri ilə üstündən tapdalayırdım. Dəcəl uşağı yatızdırırmış kimi, torpağı tapdaladıqca: “yat-yat, damda qulaq kəsən var”, – sözlərini təkrarlayırdım. O zamana qədər ki, istədiyim olurdu. Torpağın içindəki əlimi usduf-usduf çıxarırdım, qoyun yatağına bənzəyən kiçik evciklərə baxaraq, yəqin ki, bir az da olsa özümlə qürur duyurdum.

Torpaqla oynadığım günlərdən birində həmişə əlimin altında saxladığım kürəklə boyum uzunluğunda bir çuxur qazmağı planladığımı və bu planımı var gücümlə həyata keçirdiyimi, dördbucaqlı çuxurun get-gedə istədiyim şəkli almasından necə xoş hisslər keçirdiyimi, çuxurun hazır olduğunu görüb məmnun qaldığımı sözə çevirmək belə mümkünsüzdür.

Və əsil olanlar məni sevincə boğan o çuxurumun hazır olmasından sonra başladı.

Bir sözüm var, onu deyim o olanlara gələcəm.

Nənəm səhərdən axşama qədər baş verən hər şeyi görürdü. Az qala görünməsi mümkün olmayan şeyləri də – əkinə uclanan toyuqcücəni də, başını qab-qaşığa salmaq istəyən iti-pişiyi də, yoldan ötən qonum-qonşunu da, bizim üçün cızdığı azadlığın sərhədini keçib-keçmədiyimizi də görürdü. Nənəmin gözündən heç nəyi yazındıra bilməzdin. Nənəmin gözü həmişə dörd idi. Nədən ki, nənəm canlı-cansız hər şeyə təhlükə kimi baxırdı, hər şeyin qorxulu olduğunu, hər şeydən təhlükənin özünə doğru hərəkətləndiyini düşünürdü və bu üzdən də nənəm insanın dünyada görə biləcəyindən artıq şeylər görməyə alışmışdı, hər şeyi eyni vaxtda görmək onun boyuna biçilmişdi, tam ona uyğun idi.

Burada bir az söhbətin yönünü dəyişəcəm. Amma nənəmin qorxularına bir də qayıdacam. Əlimə vuranmı var, qələm ki, öz əlimdədir.

Hə, çuxurum hazır idi. Mən çuxuruma müştəri gözüylə bir də baxıb, iki də baxıb tutamamdan razı qalıram, onun ətrafına pərvanə kimi dolanıram. Və birdən nə fikirləşirəm, nə fikirləşmirəm çuxurumun içərisinə düşüb, uzanmağı qərara alıram. Niyə də uzanmayım ki, öz əlimin əməyidir, onu əmələ gətirənə qədər balaca canımla nə əziyyətlər çəkmişəm, nə qədər tər axıtmışam?

Və ədəb-ərkanla çuxuruma uzanıram. Bəlkə dincəlmək istəmişəm, bəlkə uşaqlıq marağım məni ora itələyib, bəlkə də özümü döyüşdən sonra səngərdə uzanıb dincələn bir əsgərin yerinə qoymuşammış? Düzünü desəm, bunların heç biri yadımda qalmayıb. Bir də baxmışam ki, çuxurumda uzanmışam və...

Və mən çuxurumun ləzzətini yaşadığım anda nənəmin alıcı quş kimi başımın üstünü kəsdirdiyini gördüm. Nənəmin üzünə-gözünə hopmuş dəhşət, qorxu ifadəsini görməyimin bir an çəkməsini deməyimdə bir damcı da olsun şişirtmə-zad yoxdur. Mənim onun gözlərindən baxan dəhşəti görməyim, sifətinin hər cizgisindən oxunan qorxunu, həyacanı sezməyim bir göz qırpımında baş verdi. Bunları anlayacaq yaşda olmasam da, nənəmin üzünə-gözünə hopmuş faciə ifadəsinin mənim çuxurumdan qaynaqlandığını sanki kimsə qulağıma pıçıldayırdı. Nənəmin üzünə-gözünə hopmuş o dəhşət, qorxu cizgilərinin daş soyuqluğundan tüklərimin ürpəşməsi də, həmin soyuqluğun necəsə bədənimə axması da, bütün varlığımı sarması da, mənim eymənməyim və qorxu içində çuxurumdan dik atılmağım da o məşum anın içində baş verirdi.

Nənəm qorxuları ilə birgə yaşamışdı. Qorxular bir an da olsun nənəmdən uzaqlaşmamış, hər addımda özünü hiss etdirmişdi. Nənəm itirməkdən qorxurdu. Olanları itirmək qorxusu canında idi. Nənəm anasızlıq görmüşdü, ögey ananın yumruğunun dadını dadmış, atasızlığın necə bir ağrı olduğunu erkən yaşlarından çiyinlərində daşımışdı. Əmilərinin, əmisi uşaqlarının sürgünləri, gedər-gəlməzliyə gedişləri gözlərinin qarşısında baş vermişdi. Nənəm öz nəslinin itkilərini canında yaşadan faciə qəhrəmanına çevrilmişdi.

Hələ bunlar nədir ki? Övlad itkisi yaşamışdı nənəm. Şəxsi həyatını zəhrimara çevirən müharibədən keçmişdi. Nənəm bir üzü qız, bir üzü gəlin gedəninin – babamın yolunu gözləmişdi.

Bacısını-qardaşını itirirdi nənəm bir-bir. Doğmalarını itirmək yetmirmiş kimi, nənəm arada pulunu itirirdi, qablamasını, yəni protez dişini itirirdi. Amma bu itirməklər doğmaları itirməkdən fərqlənirdi. Nədən ki, nənəm yaddaş idi, qoyduğu şeyin yerini unudan idi. Bir də görürdün nənəm bu il itirdiyi pulu gələn il tapırdı. İtirilmiş doğmaları yenidən tapmaq isə mümkün olmurdu.

İtirməkdən çox qorxurdu nənəm. İtirə-itirə gəlmişdi axı. Mənim dünyaya gəlişimlə onun yeni qorxusu yaşıd idi. İndi də məni itirmək qorxusunu canında gəzdirirdi.

Mənim çuxurda uzanmağım nənəmə məni itirəcəyi qorxusunu yaşatmışdı. Mənim çuxurum nənəmə qəbri, məzarı xatırlatmışdı, onda öz əlimlə öz qəbrimi qazmağım, öz ayağımla öz məzarıma uzanmağım təəssüratı yaratmışdı. Axı nənəm başqa cür düşünə bilərdimi?

Nənəm bütün bunları məni qorxutmaq üçün etməmişdi. O, sadəcə illərlə içinə yığılmış qorxularını açığa çıxarmışdı və doğrudan doğruya məni itirməkdə olduğu düşüncəsinin faciəsini yaşamış, mənim uşaq düşüncəmin məhsulu olan çuxur onu gerçəklikdən qoparmış, ona gördüklərinin oyun yox, gerçək olduğunu düşündürmüşdü.

Mən hələ qəbir görməsəm də, ölümün nə olduğunu təsəvvür edə bilməsəm də, ola bilsin ki, nənəmin üzündə-gözündə donmuş dəhşət dolu cizgilərdən ölüm adlı gerçəyi oxuya bilmiş, bu dünyanın ölümlü olmasını anlamışdım. Mən nədən hürkdüyümü, ətimin sümüyümdən aralanacağı dərəcədə qorxduğumu, çuxurumdan eymənərək niyə qaçdığımı başqa cür izah edə bilmədiyimin də, ona başqa ad verə bilmədiyimin də fərqindəyəm. Bunun başqa izahı, başqa adı varmı? – Bilmirəm.

**Afiq MUXTAROĞLU**

## VAHİD MİLLİ İMTAHANLARA 47000-DƏN ÇOX ABİTURİYEN, MÜƏLLİMLƏR ÜÇÜN İMTAHANLARA İSƏ 18900-DƏN ÇOX APLİKANT QEYDİYYATDAN KEÇİB




2024-cü ilin vahid milli imtahanlarında tarix fənnini daha çox abituriyent seçib. Bu haqda Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin yayımladığı statistikada bildirilir.

Abituriyentlərin ən az müraciət etdiyi fənn isə incəsənətdir.

***Digər fənlərə gəldikdə isə göstəricilər aşağıdakı kimidir:***

Tarix – 21400-dən çox abituriyent;
Riyaziyyat – 17000-nə yaxın abituriyent;
Kimya – 2800-dən çox abituriyent;
Biologiya – 4000-dən çox abituriyent;
Coğrafiya – 2600-dən çox abituriyent;
Vətəndaş təhsili – 2600-dən çox abituriyent;
Ədəbiyyat – 1400-dən çox abituriyent;
Fizika – 1000-dən çox abituriyent;
İncəsənət – 270-dən çox abituriyent.

Xatırladaq ki, 2024-cü ildə vahid milli imtahanlara ümumilikdə 47000-dən çox abituriyent qeydiyyatdan keçib. Tələblərin qrant müsabiqəsində 3000-dən çox tələbə iştirak etmək istəyini bildirib. Ümumi magistratura imtahanlarına 10000-dən çox namizəd qeydiyyatdan keçib.

Müəllimlər üçün imtahanlara gəldikdə isə, Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəzin yaydığı məlumata əsasən, müəllimlər üçün imtahanlara təxminən 18900-dən çox aplikant qeydiyyatdan keçib.

## ERKƏN NİKAHA GÖRƏ 38 MƏKTƏBLİ TƏHSİLİNİ YARIMÇIQ QOYUB




Erkən/uşaq yaşlarında nikah yenidən mühüm problem olaraq qalmaqdadır. Xalq Müdafiəçisinin 2023-cü il parlament hesabatında bildirilir ki, erkən evliliklə yanaşı, azyaşlı qızların nişanlandırılması da uşaq hüquqlarını pozan problemlərdən biri olaraq qalmaqdadır.

***"Araşdırılmış uşaq nikahı/nişanlandırılması hallarına görə, Gürcüstan Daxili İşlər Nazirliyinin Təhsil Müəssisələri və Qayğıgöstərmə Agentliyi arasında ünsiyyət, yönləndirmə mexanizminin işləməsi yenidən problemdir. Məsuliyyət daşıyan qurumların hələ də uşaq nikahı/nişanlandırılması halları üzərində işləmək üçün rəhbər qaydaları yoxdur. Eləcə də uşaq yaşlarında nikahın qarşısının alınması üçün vahid ünsiyyət strategiyası yoxdur. Nəticədə bir çox işlərdə müvafiq olmayan reaksiya, mövcud müdafiə və yardım mexanizminin effektsiz istifadə halları məlum olur"*** – sənəddə qeyd olunub.

Milli Səhiyyə Agentliyinin məlumatına görə, 2023-cü ildə 679 azyaşlı hamilə, 409 azyaşlı valideyn kimi qeydə alınıb. Həmçinin 2023-cü ildə evlilik məqsədi ilə 38 nəfər azyaşlı məktəbi tərk edib. Uşaq yaşlarında evliliyə görə qızlar əksər hallarda təhsili yarımçıq qoyurlar.

***"Qeyd etmək lazımdır ki, Daxili İşlər Nazirliyində azyaşlı ilə nikah məqsədilə törədilmiş 152 cinayətlə bağlı istintaqa başlanılıb. Prokurorluğun göstəricilərinə görə, azyaşlı ilə nikah məqsədilə törədilmiş cinayətdə 73 uşağı zərərçəkmiş hesab ediblər, 84 nəfərə qarşı cinayət məcəlləsi ilə təqib başlayıb. Uşaq evliliyi ilə əlaqədar cari hesabat ilində 14 yaşlı qızın öldürülməsi faktı ilə ciddi siyasət aparılması zərurəti yaranıb. Həmin qətl hadisəsində müxtəlif gender əlamətli zorakılıqlar qeydə alınıb"*** – hesabatda yazılıb.

Xalq Müdafiəçisi Gürcüstan hökumətinə tövsiyə ilə müraciət edib ki, uşaq yaşında nikah və bununla bağlı cinayətlərin qarşısını almaq üçün vahid ünsiyyət strategiyası hazırlansın.

Parlament isə azyaşlının nişanlandırılmasının cinayət faktı olması ilə bağlı Gürcüstan Cinayət Məcəlləsində dəyişikliyin edilməsi təklifi ilə müraciət edib.

## PEŞƏ TƏHSİLİ PROQRAMLARINA QEYDİYYAT APRELİN 22-DƏN BAŞLAYIB




Gürcüstan Təhsil, Elm və Gənclər Nazirliyinin məlumatına görə, peşə təhsili proqramlarına qeydiyyat 2024-cü ilin 22 aprel tarixindən başlayıb və 16 may tarixinə qədər davam edəcək.

Qeydiyyat onlayn qaydada **"vet.emis.ge"** veb-səhifəsində, həmçinin Gürcüstan miqyasında fəaliyyət göstərən peşə təhsili proqramlarını həyata keçirən müəssisələrdə mümkündür.

Gürcüstan miqyasında ictimai və özəl peşə təhsili müəssisələri tələbələri müxtəlif peşə təhsili proqramları üzrə qəbul edəcəklər.

Qeyd edək ki, peşə təhsili proqramlarına qəbul üçün qüvvədə olan qayda peşə təhsili əlçatanlığının artırılmasını və bütün maraqlanan şəxslərin peşə təhsilinə qoşulmasını təmin edir. Eləcə də peşə təhsili proqramlarında təhsilini davam etdirmək istəyi olanların fərdi ehtiyaclarını nəzərə alır.

2024-cü ildə inteqrasiya edilmiş proqramlara da qəbul elan olunub. Bu, baza təhsili olan şəxslərə peşə təhsili ilə yanaşı tam ümumi təhsil almaq imkanı verir. Qeyd olunan proqramların başa çatması nəticəsində peşə diplomu veriləcək və həmin diplom tam ümumi təhsil attestatına bərabərdir, lazım gəldiyi halda isə ali təhsil pilləsində təhsili davam etdirmək imkanı yaradır.

Eləcə də ikili yanaşma ilə həyata keçirilən proqramlara qeydiyyat aparılır. İkili yanaşma təhsil müəssisəsi və şirkət arasında cavabdehliyin bölünməsini nəzərdə tutur. Proqramla nəzərdə tutulmuş təhsil nəticələrinin 50 % və daha artığına real iş mühitində – şirkətdə nail olunur.

2024-cü ildə təklif olunan peşə təhsili müəssisələrinin, proqramların tam siyahısına, qeydiyyat təlimatına **"vet.emis.ge"** portalında baxa bilərsiniz.

Peşə proqramları ilə əlaqədar məsləhət almaq üçün (+995 32) 2200 220 nömrəsi ilə və ya info@emis.ge imeyli ilə əlaqə saxlaya bilərsiniz.

## İYULUN 1-DƏN MÜƏLLİMLƏRİN YENİ ƏMƏKHAQQI VƏ MƏZUNİYYƏT HAQQI QAYDASI QÜVVƏYƏ MİNƏCƏK



Parlamentin Təhsil Komitəsi ümumtəhsil haqqında qanunda dəyişiklik edilməsini müzakirə edəcək. Dəyişikliyə əsasən, müəllimlərin yeni əməkhaqqı siyasəti 2024-cü ilin 1 iyulundan qüvvəyə minəcək – tam qrafiklə işləyən müəllimlərin əməkhaqqı orta hesabla 500 lari və daha çox artırılacaq.

Həmçinin qanuna qeyd əlavə olunacaq. Həmin qeyd ictimai məktəb müəlliminin 2024-cü il məzuniyyət haqqı məsələsini tənzimləyəcək.

***"2024-cü il məzuniyyətdən istifadə edən/edəcək ictimai məktəb müəllimləri üçün 1 iyuldan məzuniyyət haqqı, məzuniyyətdən əvvəlki 3 ayın orta əməkhaqqından, əgər onun işə başladığı və ya son məzuniyyətindən sonra işlədiyi vaxt 3 aydan azdırsa – işlədiyi ayların orta əməkhaqqından (məzuniyyət haqqının ödənilməsi məqsədi üçün 2024-cü ilin aprel, may, iyun aylarının əməkhaqqı 2024-cü ilin 1 iyuluna olan vəziyyətə görə "ictimai məktəb müəllimlərinin əməkhaqqının minimal miqdarı və şərtlərinə" uyğun olaraq hesablansın) müəyyən olunacaq.***

***Əgər qeyd olunan qaydaya uyğun olaraq müəyyən edilmiş məzuniyyət haqqı müəllimin 2024-cü ilin 30 iyununda qüvvədə olan "ictimai məktəb müəllimlərinin əməkhaqqının minimal miqdarı və şərtlərinə" uyğun hesablanmış məzuniyyət haqqından az olarsa, o zaman müəllimin məzuniyyət haqqı 2024-cü ilin 30 iyununda qüvvədə olan "ictimai məktəb müəllimlərinin əməkhaqqının minimal miqdarı və şərtlərinə" uyğun müəyyən edilməlidir"*** – qanun layihəsində qeyd olunub.

*Səhifədəki məlumatlar "etaloni.ge" saytından götürülüb.*
*Gürcü dilindən tərcümə etdi:* **Aynurə ƏLİYEVA**

# QEYRİ-STEREOTİPLƏR: FEMİNİST PEDAQOQLAR



19-cu əsrdən üzü bu yana qızların oğlanlarla birgə təhsil alması, qadınlarla kişilərin bərabər hüquqlara sahib olmaları yönündə çox mübarizələr getmişdir. Təbii ki, bu mübarizələrin bəhrəsi də alınmışdır. Amma yenə də cəmiyyətdə arzuolunan tarazlıq yarana bilməmişdir. Cəmiyyətdə qadınların rolu artdıqca kişiləri üstələməyə çalışıblar və nəticədə kişilər səhnədən çəkilməyə başlayıblar. Müəyyən sahələrdə kişilər tam olaraq yoxa çıxıblar demək, təbii ki, doğru çıxmaz, ona görə də, azalıblar desək daha doğru olar. Və elə həmin sahələrdə qadın hegemonluğu, qadın hökmdarlığı cücərməyə başlayanda cəmiyyətdə feministlər yaranmağa başladı. Məqsəd bərabərlik, tarazlıq yaratmaq idi, amma bu cərəyan feministləri və anti-feministləri üzə çıxardı. Onların qarşıdurması nəticəsində isə stereotiplər və qeyri-stereotiplər yarandı. Onlar cəmiyyətdə baş verən hadisələri, peşə sahələrini, təhsili qadın-kişi cinslərinə ayırmağa başladılar. Sadə misallar göstərək: Təhsil müəssisələrində dərs deyən müəllimlərin əksəriyyəti qadınlardır; qızlar üçün ən düzgün peşə seçimi həkimlikdir; polis kişi peşəsidir və sairə...

Bu, təhsil sahəsində də belədir. Bu gün istənilən bir məktəbə gedib hər hansı bir sinfə nəzər salsaq görərik ki, oxuyanların, aktivlik göstərənlərin əksəriyyəti qızlardır. Siniflərdə bir-iki oxuyan oğlan ola, olmaya. Onların da böyük hissəsinin sona qədər oxumağı müvəqqəti haldır. Elə ki doqquzuncu sinfi bitirdilər, oxumağın daşını atırlar. Təbii ki, hamısına şamil etmirəm.

Bəs bu nə üçün belə olur? Bir zamanlar oxuyanlar yalnız oğlanlar idilər. Bu gedişat niyə dəyişdi? Kim dəyişdirdi? Bax burada yuxarıda yazdığım “cəmiyyətdə qadın hegemonluğu” ifadəsi bu suallara cavab verir, hansı ki, oğlanları səhnədən çıxarırdı. Amma əslində bu, qadınların aktiv cəmiyyət həyatından qaynaqlanmır. Bunun əsl səbəbi feminist ruhlu qeyri-stereotiplərdir, hansılar ki, cəmiyyətə öz əsassız düşüncələrini aşılayıblar. Bu tiplərə pedaqoqlar da daxildir. Daha bir sadə misal göstərək: Bir pedaqoqa əsasən, əgər hər hansı bir sinifdə (və ya qrupda) qızların sayı çox olarsa, həmin qrupda nizam-intizam hökm sürür. Onlar aktiv olurlar, yaxşı oxuyurlar, oxumayan da onlara baxıb həvəslənir. Oğlanların üstünlük təşkil etdiyi yerlərdə isə əksinə, onlar oxumurlar, dərsə qulaq asmırlar, səs-küylə dərsi pozurlar. Evini tələbəyə kirayə vermək istəyən biri həmişə qızlara üstünlük verir. Çünki onlar evi səliqə-sahman içində saxlayacaqlar, əşyalara ziyan vurmayacaqlar, qonşuları narahat etməyəcəklər və sairə...

Bu sadalananların doğruluq payı yüksəkdir. Amma iş burasındadır ki, bəzi pedaqoqlar dərs prosesində həmin oğlanları görməzdən gəlirlər. Elə bil dərs yalnız qızlara aiddir kimi davranırlar. Oğlanlar ikinci planda qalıb gözardı edilir. Bəlkə elə buna görə oğlanlar öz anasının nəzərini özünə cəzb etmək istəyən körpə uşaq kimi davranırlar, səs salırlar, biz də buradayıq deməyə çalışırlar. Bu davranışları onları daha da gözdən salır. Nə qədər çabalasalar boşdur. Qaldı ki ev məsələsinə, bəli, bəzi oğlanlar ev işlərini görə bilmirlər. Amma bəziləri də var ki, necə deyərlər, on barmağında on mərifət, əllərindən hər iş gəlir. Yeməkdən tutmuş yumağa qədər – hər iş görürlər. Guya bütün qızlar məharətlidirlər. Məncə, bir qotur danaya görə naxırın adını pozmaq düzgün olmazdı. Bunlar da bir başqa tiplərdilər.

İndi isə qayıdaq yazımızın baş qəhrəmanı olanlara. Həmin qeyri-stereotiplər üçün əsas qızlardır. Təki onlar oxusunlar, peşə yiyəsi olsunlar. “Oğlana nə var, palçıq da qarışdırar, fəhləlik, çobanlıq edər, ailəsini dolandırar” fikri az qala şüarlarına çevrilə.

Bəlkə buna görə oğlanlar daha oxumurlar. Yəqin fikirləşirlər ki, müəllim onsuz məndən dərs soruşmur, boş yerə niyə yazıb-oxuyum. Müəllim ondan tələb etmir, onda məsuliyyət hissini oyatmır. Hələ şahidi olmuşam: bir oğlan tapşırığını yazıb yoxladanda müəllim “Düzünü de, özünmü yazıbsan, yoxsa qızlardanmı köçürübsən?” – deyə düşmüşdü uşağın üstünə. İndi təsəvvür edin, oxumaq o qədər qızlarınkılaşdırılıb ki, hər hansı oğlan dərs öyrənib danışanda dostları “qızsanmı dərs oxuyursan”, dəftər-kitabını çantaya qoyub gətirəndə “bu nədir, qız kimi çanta taxırsan”, – deyə lağa qoyurlar.

Bəzi feminist pedaqoqlar da buna zəmin yaradırlar. Təəssüflər olsun ki, bu dəfə də dərsi Əli, Vəli, Pirvəli danışsın deyən pedaqoqlar azalmağa başlayıblar, necə ki, oxuyan oğlanlar. Hələ ruhdan düşməyənlər isə deyəsən endemik növlərdir. Bəlkə bu gedişlə onlar da “Qırmızı kitaba” düşələr. Və bununla da feministlər qalib gələlər. Bəlkə gələcək əsrlərdə oğlanların cəmiyyətə qazandırılması yönündə lahiyələr baş tutacaq. Kim bilər. Amma son olaraq onu deyim, bu cəmiyyətdə tarazlıq bizim işimiz deyil. Tərəzinin hansı tərəfinə ağırlıq qoyuruq digər tərəfi sıradan çıxarır. Mən də həmişə qadın hüquqları tərəfdarıyam. Amma bu o demək deyil ki, kişilərin hüquqlarını taptalamalıyıq, onları cəmiyyətdə sıxışdırmalıyıq. Bizim hüququmuz bitən yerdə başqalarının hüququ başlayır. Əgər bərabərlik istəyiriksə indi dövr kişilərlə qadınların bərabərliyini qurmaq üçün kişiləri də cəmiyyətə qazandırmaq vaxtıdı.

**Çiyalə OSMANOVA**
*Tbilisi Dövlət Universitetinin hazırlıq kursunun tələbəsi*

# MODA – YARALI YERİMİZ



Daima gözəl görünmək, diqqətdə olmaq üçün tələb olunan əsas şərtlərdən biri də gözəl geyim tərzidir. Dəb durmadan dəyişir. Mağazanın vitrinlərini demək olar ki, hər gün daha yeni geyim və aksesuarlar, kosmetik vasitələr bəzəyir. Dəb dalınca qaçanlar isə heç düşünmədən pulunu son qəpiyinə qədər xərcləməyi seçirlər. Bu cür insanları ancaq dəbli geyinmək maraqlandırır.

İnsanlar adətən xeyli paltarlarının olmasına baxmayaraq “geyinməyə heç nəyim yoxdur” deyirlər; dolabın altını-üstünə çevirib bir neçə paltar dəyişir və narazı şəkildə güzgüyə baxırlar. Bu cür insanlar mağazaya gedəndə özlərini itirirlər və nə qədər pul xərclədiklərinin fərqinə varmırlar. Bu insanlar yeməksiz qala bilər, amma modasız, dəblə geyinməkdən qala bilməzlər.

Dəbə uyğun geyinmək və görünmək arzusu illərdir davam edir. Keçmişdə xüsusilə qadınlar geyimə, bəzənməyə üstünlük verirdisə, indi bu hal gender bərabərliyi kimi dəyişib. Qadın, kişi, böyük, kiçik – hər kəs geyiminə fikir verir.

Orta əsrlərdə kişilərin zövqlə geyinmələrinə yaxşı baxılmırmış. Elə sayılırdı ki, kobud geyimlər əsl kişilərə xasdır, bəzəkli geyimlər isə qadınlara məxsusdur. Ancaq bu gün zövqlə, daha doğrusu, dəblə geyinən kişilərimiz də az deyil. Cəmiyyətimizin bir qismi bu hala qarşı müsbət rəylər bildirməsə də, heç kəsin geyiminə, dəbinə qarışmaq olmur. Küçədə gənclərin arxasından “bir bunun ətrinə bax, əşşi, kişi nədir, ətir nədir”, “kişi bir balaca meymundan fərqli oldu bəsdir, bu uşaqlar niyə belə qız kimi saçını-başını düzəltdirir” və bu kimi düşüncələrlə kişi dəbinə qarşı öz etirazını bildirənlər çoxdur.

Lakin hər şey bir kənara, məni bu gün gənc oğlanlarımızın geyimində narahat edən başqa məsələdir. Belə ki, küçədə gedərkən qarşımızda irəliləyən insanın bəzən qız və ya oğlan olduğunu çətin ayırd etmək olur. Müasirliyin, baxımlı olmağın, özünə diqqətin, əlbəttə, tərəfdarıyam. Ancaq atalarımız demişkən, insanı geyiminə görə qarşılayıb, ağlına görə yola salarlar.

İstər-istəməz geyimlə az da olsa insan düşüncəsini, həyat tərzinin necəliyini müəyyənləşdirmək olur. Güllü-çiçəkli, alabəzək geyimli birinin necə bir həmsöhbət olacağı adamı düşündürür.

Qaldı ki, kişilərin, gənc oğlanların geyiminə, hər şeydən öncə kişi gərək hər mənada, geyimində, davranışında, yerişində kişi kimi ola. Geyimlə yanaşı bunlar da bir-birini tamamlamalıdır.

Məni narahat edən ən əsas məqam gənclər və uşaqlarla bağlıdır. Məktəbli uşaqların ağlında “sabah hansı dərslərim var” əvəzinə “sabah məktəbə nə geyinəcəm” sualı dolaşır. “Balam, bu gün dərsinə hazırsanmı, gəl danış qulaq asım, təkrar etmiş olarsan” əvəzinə “balam bu gün nə qəşəng geyinib, gəl şəklini çəkim paylaşaq” deyən valideynlərimiz var artıq...

Nənəm deyirdi, bayramda uşaqlara təzə paltar alardıq, bayramlıqlarını geyinib sevinərdilər. Bayramdan sonra da əyinlərindən çıxarıb qoruyardılar ki, yağış görməsin paltarlarımız. Toydan-toya geyinərdilər. Bu sevinci yaşayan uşaqlar bizim ata və analarımız olublar. İndi bizim özümüzün sevincimizdən danışım.

Məktəb başlamazdan bir həftə öncə anamız bizə yeni paltarlar alardı. Özü seçər, bəyənərdi. Anamız gələnə qədər həyacanla gözləyərdik. Çünki təkcə yeni paltarlar yox, yeni çanta, yeni üzü rəngli dəftərlər, məktəb ləvazimatları da alacağını bilərdik. Anam evə çatan kimi hər şeyimizi ayırar, geyinin atanız baxsın, deyərdi. Xoş sözlər deyilirdi, bəyənilirdi deyə çox sevinirdik. O gündən sonra tam məktəb açılana qədər dəftərlərimizlə oynayardıq – bu dəftərimi ana dili dəftəri edəcəm, bu riyaziyyat üçün yaxşıdır və s. Seçib, düzəldib hamısını hazırlayardıq. Sabah məktəb açılır deyəndə bacımla həyacandan gecəni yata bilməzdik. Səhər də o qədər sevincək, enerjili olardıq, heç inanmazdılar ki, biz yatmamışıq.

Bu danışdıqlarım valideynlərimizin və bizim dövrümüz idi, indi sıra gəldi indiki dövrə. Keçən günlərdə bazarda təsadüfən bir uşaqla nənənin söhbətini eşitdim. Uşaq ağlayırdı, nənə də “bala, nə qədər ağladın, bəsdir daha” deyə sakitləşdirməyə çalışırdı. Satıcı dayana bilməyib soruşdu: “Niyə ağladırsan bu gözəl qızı, nənəsi?” Nənə: “Girişdə bir köynək gördü, dedi alaq, mən də almadım. Üzərinə “tik tok” yazılmışdı, dedim olmaz, onu məktəbə geyinə bilməyəcəksən, gedək ağ köynək alaq, bunu da yayda alarıq. Ondan buyanadır ağlayır. Neyliyim, gedib alacam məcbur. Deyir, sən deyirsən olmaz məktəbə geyinmək, amma rəfiqələrimin hamısı geyinir”...

Hazırda univeristetdə təhsil alıram. Bəzi qızlarımız univeristet dəhlizlərini podium hesab edirlər. Özlərinə yaraşdı-yaraşmadı, geyinirlər. Bununla da öz gözəlliklərini pozmuş olurlar. Heç kim kimsəyə “bunu geyinmə” deyə qadağa qoya bilməz. Amma elə etmək lazımdır ki, paltar həm bədənin ahəngdarlığını, həm də öz sahibinin ədəb-ərkanını nümayiş etdirsin.

İnsanların gözəlliyə münasibəti müxtəlifdir. Kimi gözəllikdə təbiiliyi, kimi ciddiliyi, kimi də sadəliyi sevir. Geyim zövqlə bağlıdır. Məncə, insanda zövqün inkişafı onun həyat təcrübəsi, tərbiyəsi, dünyagörüşü, təhsili və s. ilə əlaqədardır.

Mənim üçün moda özümə yaraşandır. Hər kəs çalışmalıdır ki, geyim seçimlərində diqqətli olsun. Nə müasirlikdən gen qaçmaq lazımdır, nə də ki, sərhədləri aşmaq. Bu gün çox gənclərimiz var ki, Avropaya istinad edib, açıq-saçıq geyimlərə üstünlük verirlər. Lakin bir şeyi unudurlar ki, Avropada gündəlik geyimlər belə bizdə olduğu qədər nə açıq, nə də ziyafət geyiminə bənzərdi. Hətta bir yerdə oxumuşdum, podiuma çimərlik geyimində çıxan modelin iş saatlarında mini yubka geyinməsinə icazə verilmirmiş.

Nə isə... qısaca da olsa bir az geyim mədəniyyəti sahəsindəki problemlərə toxunmağa çalışdım. Ümidvaram, bir gün təhsilimiz də moda kimi həm kişilərin, həm qadınların, həm də uşaqların maraq dairəsinə çevriləcək.

**Aytən FƏTULLAYEVA**
*Tbilisi Dövlət Universitetinin dəqiq və təbiət elmləri fakültəsinin birinci kurs tələbəsi*

# PARLAQ GƏLƏCƏK GƏNCLƏR MƏRKƏZİ





Parlaq Gələcək Gənclər Mərkəzi 2023-cü ilin noyabrında təsis olunub. Mərkəz Bolnisi munisipalitetinin Xidisquri kəndində yerləşir. Təhsil mərkəzini yaratmaqda məqsəd gənclərin təhsillə bağlı planlarının, eyni zamanda boş vaxtlarının səmərəli keçirilməsində onlara dəstək olmaqdır. Mərkəz məktəblə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərərək yeniyetmə və gənclərə dəstək olur, onların təhsildə üzləşdikləri çətinliklərin və maneələrin aradan qaldırılması istiqamətində mühüm işlər görür. Təhsil mərkəzində riyaziyyat, məntiq, rus dili, ingilis dili və məktəbəqədər hazırlıq kursları mövcuddur. Yaxın gələcəkdə gürcü dili və ədəbiyyatı, həmçinin Azərbaycan dili və ədəbiyyatı kursları təşkil olunacaq. Mərkəzdə musiqi, rəsm və teatr dərnəkləri fəaliyyət göstərir. Kursların fəaliyyətindən nəinki Xidisquri (keçmiş Həsənxocalı), həmçinin Muxrana (keçmiş Daşlıqullar), Balaxuri (keçmiş Səyalıoğlu), Çapala (keçmiş Qoçulu) və Naxiduri ( keçmiş Arıxlı) kəndlərinin gəncləri də yararlanırlar. Təhsil mərkəzi eyni zamanda müxtəlif təlimlər, görüşlər və tədbirlər üçün platforma rolunu oynayır. Belə ki, mərkəzdə təhsil və inkişafla, həmçinin gənclərin cəmiyyətə inteqrasiyası istiqamətində maarifləndirici görüşlər təşkil olunur. Qadınlar, onların problemləri ilə bağlı təlimlər mütəmadi olaraq keçirilir və böyük auditoriyaya malikdir. Bu cür görüşlərin keçirilməsində əsas məqsəd erkən evlilik, onun yaratdığı problemlər haqqında lazımi məlumat vermək və həlli yolunda müzakirələr aparmaqdır. Eyni zamanda qadınlarla bağlı müxtəlif mövzularda maarifləndirici görüşlər təşkil olunur. Təhsil mərkəzində bu cür görüşlərin keçirilməsi ənənəvi xarakter daşıyır. Təhsil mərkəzinin gəncləri müntəzəm olaraq intellektual bilik və idman yarışlarında iştirak edirlər. Həmçinin milli və dövlət bayramlarının, mühüm tarixi günlərin geyd olunması, gənclərin belə tədbirlərə cəlb olunması mərkəzin iş funksiyasının əsas təməllərindən biridir.

Parlaq Gələcək Gənclər Mərkəzinin pedaqoji kollektivi yüksək səviyyəli mütəxəssislərdir. Təhsil mərkəzinin təsisçisi və rəhbəri Araz Musayevdir. O, 2012-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetini bitirdikdən sonra vətənə qayıdaraq Muxrana ümumi məktəbində kimya-biologiya müəllimi kimi çalışmağa başlayıb. Daha sonra riyaziyyat fənnindən baş müəllim statusu almışdır. Araz Musayev eyni zamanda Azərbaycan Diplomatik Akademiyasında (ADA) magistr proqramı üzrə təhsil alır. Məhz onun əməyi və əzmkarlığı nəticəsində 2022-ci ildə 11 nəfər gənc Gürcüstanın nüfuzlu universitetlərinə qəbul oldular. Araz müəllim Parlaq Gələcək Gənclər Mərkəzini yaratmaqla gənclərin intellektual və mədəni inkişafı istiqamətində məqsədyönlü və səmərəli fəaliyyət göstərməkdədir.

Mərkəzin ən dəyərli pedaqoqlarından biri Əhmədalı Babaşovdur. O, Faxralı kəndində doğulub böyümüşdür. Orta məktəbi bitirdikdən sonra təhsilini Xəzər Universitetində davam etdirmişdir. O, maliyyə-kredit ixtisası üzrə ali təhsil almış və vətəninə qayıtmışdır. 2018-2020-ci illərdə Gürcüstan Texniki Universitetində riyaziyyat üzrə magistr təhsili alıb. 2019-cu ildən Faxralı kəndində yerləşən 2 nömrəli tam orta məktəbdə riyaziyyat fənnini tədris edir. Əhmədalı müəllim eyni zamanda Savaneti (İmirhəsən) kəndində də çalışır. 2019-cu ildə ən yüksək nəticə ilə riyaziyyat üzrə baş müəllim statusu almışdır. 2020-2021-ci illərdə Gürcüstanın Avropa Universitetində 60 kreditlik proqram üzrə təhsil alıb. Əhmədalı müəllim riyaziyyat və məntiq fənlərini yüksək səviyyədə tədris etməklə şagirdlərinin etibar və sevgisini qazanmışdır. Onun şagirdləri Gürcüstanın ən nüfuzlu universitetlərində təhsil alırlar.

Təhsil mərkəzinin ingilis dili müəllimi Rəksanə Şıxıyevadır. O, Azərbaycan Dövlət Dillər Universitetini bitirdikdən sonra iş fəaliyyətinə Gürcüstanda başlayıb. Rəksanə müəllim Azərbaycan Diplomatik Akademiyasında magistr proqramı üzrə təhsil alır. O, Qafqaz Hüquq və İnteqrasiya Mərkəzində də ingilis dilini yüksək səviyyədə tədris edir.

Təhsil mərkəzində çalışan müəllimlərdən biri də Şahvələd Nəbiyevdir. O, Dmanisi rayonunun Dunus kəndində doğulub böyümüşdür. 1995-ci ildə Bakı Dövlət Universitetinin tətbiqi riyaziyyat fakültəsini bitirib vətənə qayıtmış və Dunus kəndində iş fəaliyyətinə başlamışdır. 2006-cı ildən Dunus ictimai məktəbində direktor vəzifəsində çalışır. Şahvələd müəllim riyaziyyat fənni üzrə qabaqcıl müəllimdir. 2016-cı ildən etibarən müəllimləri imtahana hazırlayır, trener kimi çalışır. Müəllimlərin peşə bacarıqları və riyaziyyat fənnindən imtahana hazırlığında xüsusi xidmətləri var. 2016-2017-ci illərdə Təhsil Nazirliyində Direktorlar Şurasına üzv seçilib və azərbaycandilli məktəbləri təmsil edir. Şahvələd müəllim bir sıra kitabların müəllifidir. “Riyaziyyatdan stolüstü məlumat kitabı”, “Riyazi terminlər lüğəti”, “Müasir təlim metodları”, “Peşə bacarıqları”, “Ümumi qabiliyyət” adlı kitablar Şahvələd müəllimin əməyinin məhsuludur. Onun yaxın günlərdə abituriyentlər üçün “Ümumi qabiliyyət” kitabının ikinci nəşri çap olunacaq.

Parlaq Gələcək Gənclər Mərkəzi az müddətdir fəaliyyət göstərməsinə baxmayaraq təhsil və inkişaf istiqamətində önəmli işlərə imza atıb. Ümidvaram ki, təhsil mərkəzi daha uzun illər fəaliyyət göstərəcək və daha böyük uğurlara nail olacaqdır. Parlaq Gələcək Gənclər Mərkəzinə fəaliyyətlərində uğurlar diləyirəm!

**Leyla YUSİFOVA**
*Vətəndaş təhsili fənni üzrə müəllim*



# HEÇ VAXT GEC DEYİL

Təəssüf ki, insanların çoxu hər şeydən tez imtina edirlər, üstündə durmurlar. Bir dəfə alınmayanda, yaxud həyatlarında nəsə tərs bir şey baş verəndə bir də o şey üçün çabalamırlar.

Dövrümüzdə hansısa səbəblərə görə ali təhsil almayan çox insan var və buna görə peşman olanlar da çoxdur. Bu insanlar oxumağın, təhsil almağın onlar üçün gec olduqlarını deyərək yenidən başlamağa cəhd etmirlər, yoxlamırlar.

Elə adamlar var ki, sürücülük vəsiqəsi almaq istəyirlər, amma cəhd etmirlər, oxumurlar, öyrənmirlər. Çünki ya qorxurlar, ya da bunun üçün yaşlarının keçdiyini düşünürlər. Elə qadınlar da var sürücülük vəsiqəsi almaq istəyirlər, amma həyat yoldaşları oxumağa, maşın sürməyə icazə vermirlər. Ən çox da qadınlara qadağa qoyurlar və bu, çox qürur qırıcıdır. Bir qadının nəyi əskikdi kişidən? Və ya niyə oğlanlar təhsil ala bilər, sürücülük vəsiqəsi ala bilər, istədiyi ölkəyə tək gedə bilər, amma sıra qadınlara gəldikdə “sən qadınsan, bunu edə bilməzsən” deyərək qadağalar qoyulur...

Və mən buradan bütün qızlarımıza səslənirəm. Əziz xanımlar, siz qadın olduğunuzu nə vaxtsa layiqincə yaşamaq istəyirsizsə heç vaxt evlənməyə tələsməyin. Hər şeydən öncə oxuyacaqsınız, təhsilinizi artıracaqsınız. Sevdiyiniz sənətə yiyələnəcəksiniz. İstədiyiniz işlə özünüzü təmin etməyə çalışacaqsınız və əmin olun ki, siz bunu bacaracaqsınız. Heç vaxt heç nə üçün gec deyil. Siz qadınsınız, bu həyatda hər şeyin öhdəsindən ustalıqla gələ biləcək bir varlıqsınız. Siz özünüz olaraq dünyanızı var etməlisiniz. Nəyəsə başlamaq üçün heç vaxt gec deyil. Bu, təkcə qadınlara aid deyil. Başlayın, ən azından cəhd edin, yoxlayın.

Fikrimcə, fərqi yoxdur qız, ya oğlan – hər kəs həyatda lazım gələcək hər şeyi bilməlidir. Məsələn, maşının nəyi xarab olduğunu qız da başa düşməlidir, oğlan da. Mən demirəm ki, kiməsə və ya nəyəsə görə mütləq bilməlisiniz, xeyr, biz bu dünyada hər şeyi birinci növbədə özümüz üçün bilməliyik. Məsələn, yemək bişirməyi qız da bacarmalıdır, oğlan da; evi yığıb-yığışdırmağı qız da, etməlidir, oğlan da. “Ay bu qız işidir, mən bunu etmərəm” deyib kənara çəkilmək düzgün deyil.

Demək istədiyim odur ki, qız işi və ya oğlan işi olmur. Və nəyisə etmək və ya öyrənmək heç vaxt gec deyil. Əgər nəyəsə həvəsiniz varsa onu öyrənmək nə yaşa baxmalıdır, nə də cinsə. Axı bilməmək ayıb deyil, öyrənməmək ayıbdır...

“Oxumaq, oxumaq, yenə də oxumaq!” boşuna deyilməyib. Bir insan öz savadını inkişaf etdirməyə çalışsa hər yerdə digər insanlardan fərqlənər. O qədər ali təhsil almayan insan var, amma yenə də əlindən gəldiyi qədər biliyini inkişaf etdirməyə çalışırlar, kitablar oxuyaraq yenilikləri öyrənməyə, dünyagörüşlərini artırmağa çalışırlar. Çünki heç vaxt gec deyil.

**Elvina HACIYEVA**
*Nizami Gəncəvi adına Beynəlxalq Elmlər Akademiyasının hazırlıq kursunun tələbəsi*

# GÜLÜŞÜN ESTETİKASI

Elizbar CAVELİDZE



*(əvvəli ötən sayda)*

Yalın və sırf söz qılınc kimi siyirilmiş və bədəli olmayan sözdür, yəni hər cür zinətdən uzaq nitqdir...

Onun xarakterinin ən səciyyəvi xüsusiyyəti onun zehniaçıqlığı olduğundan seçilmiş və ucalmışdır. Bax, bu yalın, xalis söz Xocanın qolu, qanadıdır, belə düşünür, özünü belə ifadə edir. Ona görə də onun zehniaçıqlığı və hazırcavablığı sizə elə bir hiss bəxş edir, o qədər səmimi və təbiidir ki... sanki dilinin ucundadır... *(Güney E. Cem, Nasreddın Hoca Fıkraları, İst., 1957, s. 200).*

Samim Kocagöz isə fərqli bir fikir ifadə edir. Onun fikrincə, Xoca Nəsrəddin lətifələrinin quruluşunu, zəkasının daxili dərki dil qanunauyğunluğu ilə izah etmək olmaz.

Əvvəla, Xoca lətifə danışmağa, yazmağa heç bir enerji sərf etmir. Milli şüurun dərinliklərində batıb qalmış (sakini) Xoca Nəsrəddin dühasını onun səmimi təbiətində axtarmaq lazımdır. Onun böyüklüyü və istedadı gündəlik həyatında və qarşılıqlı əlaqələrindədir, onda mövcud olan cəmiyyətin baxışıdır, camaatla əlaqə və söhbətindədir. Odur ki, mövcud ictimaiyyətin, onların baxış bucağının izahıdır. Bax, bu, onun lətifələridir *(Kocagöz S., Nasreddın Hoca Fıkraları, İst., 1972, s. 89).*

Bir növ, özü də əla yumorist olan satirik yazıçı Əziz Nesinin baxış bucağı maraqlıdır: Yazıçı düşünür ki, Xoca Nəsrəddinin gülüşünü uzadıb-dartmaqla, gözəlləşdirməklə izah etmək olmaz. Nağılların əksinə olaraq davam etməklə, gərməklə izah edilmir.

Nəsrəddinin gülməli hekayələri sözün hər cür davamiyyət olmadan, bir neçə sözlə mümkün qədər qısa şəkildə çatdırılır.

Nə qədər sıxılmış, kəsilmiş və qısa çatdırılsa, təsir və gülüş gücünü bir o qədər güclü qazanar. Bundan əlavə Nəsrəddinin gülüşünün özəlliyi ondan ibarətdir ki, o, yekun nəticənin sonunda və sonluqda xüsusi qətiyyətlə qılıncını çəkir *(Nesin A., Nasreddın Hoca Gülütlerı, İst., 1991, s. 9).*

Sonda Ali Esat Bozyiğitin fikrini xatırlaya bilərik. Belə ki, onun fikirlərinə də uyğun olaraq Nəsrəddinin lətifələrinin əksəriyyətində sadəlik, qısalıq əks olunub və ağıla əks-səda verməsi – kəskin nəticədir *(Küprülü Mehmet Fuat, adı çəkilən əsəri, səh. XXIII-XXIV).*

Bu məsələ ilə bağlı başqalarının fikirlərinə də müraciət edə bilərik, amma bu, bizə yeni heç nə deməyəcəkdir. Yuxarıda qeyd etdiyim nöqteyi-nəzəri bir neçə sözlə belə ümumiləşdirə bilərəm:

Nəsrəddinin yumoru aşağıdakılara əsaslanır: a) sıyrılmış qılıncın bənzəri olaraq, kəsici qılınca və yalın sözə və göz açıqlığına (Güney); b) Xoca Nəsrəddinin lətifələrinin quruluşunu, yumorunu dilin düzülüşü ilə izah etmək olmaz. Onun dühasını onun insan aləmində, insanların varlığında və onlarla münasibətində, ictimai dünyagörüşündə axtarmaq lazımdır (Kocagöz); c) Nəsrəddin lətifəsinin gülüşü qısa və az sözdən, eləcə də nəticə çıxaran zaman ələlxüsus qılınc çalmaqdan qaynaqlanır (Əziz Nesin); ç) Nəsrəddin yumorunu sadəlik, qısalıq, ağla uyğun kəskin nəticələr şərtləndirir (Bozyiğit).

Düşünürəm ki, yuxarıda qeyd olunanların hamısı Nəsrəddinin yumorunun müəyyən keyfiyyətini göstərən və birlikdə götürdükdə onun gülüşünün ümumi mənzərəsini yaradan ayrıca əlamətlərdir. Amma bu müəyənlşdirmədə, fikrimcə, qeyd olunmur: Lətifənin quruluşunun gülüşə səbəb olan əsas təməli və ümumən üzərində qurulduğu komik, istərsə də, gülüşün quruluşu, bu isə, komik səhnənin sonunun, finalın qəfil bitməsinin təsiridir ki, bu da nəhayət, gülüş reaksiyasına səbəb olur. Əks halda lətifənin necə bitdiyini, tutaq ki, Xoca Nəsrəddinin nə deyəcəyini, necə deyəcəyini dinləyici və ya oxucu əgər bilsə, o zaman onu güldürmək çətin olacaq. Üstəlik, gülməli hadisə özlüyündə yenilik hissi ilə müşayiət olunmalıdır. Sadə bir müşahidə bizi əmin edir ki, ilk dəfə dinlənilən zarafat bizi güldürür, elə həmin şey ikinci dəfə eşidilən gülüş doğurur, üçüncü dəfə isə heç bir reaksiyaya səbəb olmur. Bu dinləyiciyə, eləcə də oxucuya, istərsə də səhnənin seyrçisinə aiddir. Qısası, Xoca Nəsrəddinin müxtəlif dövrlərdə, əsrlərdə yaranmış lətifələri müxtəlif duyğular doğurudu: Keçmişdə insanı güldürən şeylər onda zamana və vəziyyətə uyğun emosiya yaradırdısa, müasir dinləyici və ya oxucuda kifayət qədər emosional təsir, xüsusən də gülüş reaksiyası yaratmaması tamamilə təbiidir. Amma elə burada ələhiddə qeyd etməliyəm ki, həqiqi və dərin yumorun nə zaman çərçivəsi, nə də etnik sərhədi var. Xoca Nəsrəddinin sonralar xalq arasında atalar sözünə çevrilmiş bəzi lətifələri yaşlılığına baxmayaraq, bu gün də bizi valeh edir və şənləndirir.

İndi isə müəllif təbiətini, daha doğrusu, gülüş keyfiyyətini müxtəlif prizmalarda təqdim edən bu lətifələrin tematik qövsü haqqında bir neçə kəlmə danışaq. Əvvəla, bu lətifələrdə bu ölkənin qüdrətlilərinə qarşı yönəlmiş gülüşləri xatırlamalıyam. Bu silsilənin çoxu Teymurləng ilə bağlıdır ki, bu da, mənə elə gəlir ki, onlar Teymurləngin Səlcuq səltənətinə hücumundan sonra yaranıblar və Teymurləngin yaramaz və amansız şəxsiyyəti qəfil ölüm kimi Kiçik Asiyanın üstünü kəsdirdi, I Bəyazid İldırımdan (miladi 1402-ci il) sonra elə dağıtdı, tamamilə yandırdı və oraları məhv etdi ki, “heç yerdə daha nə itlərin hürməsi, nə xoruz banı, nə də uşaq ağlaması” eşidilirdi, camaatın yaddaşında aydın şəkildə qaldı. Müvafiq olaraq camaat bu unudulmaz şoğərib sifətə gülüşlə qalib gəlməyə çalışır və günahı öz bəsirəti və yumoru ilə bəzən kinayəyə keçir, Teymurləngin qorxulu kölgəsini dağıdır və onu sadə bir dünya fanisi, axmaq və səfeh bir insan kimi düşüncəsi məhdud, insan ləyaqətini ancaq geyiminə və ya sinəbəndinə görə qiymətləndirilə bilən ədalətsiz despot kimi təsvir edir. Üstəlik, tez-tez dünyanın qorxduğu Teymurləng Xocanı öz eşşəyi və quyruğu səviyyəsində qoyur. Bir sözlə, bu, Xocanın lətifələri ilə tanış olduqdan sonra çəkə biləcəyiniz məşhur karikatura portretidir. Amma burada qeyd etməliyəm ki, Xoca Teymurləngi məsxərəyə qoyur, onu aşağılayır, baxmayaraq ki, o, ona qarşı nifrətini püskürtmür, göstərmir. Güman ki, ona görə ki, ikrah doğuran obyekt hansısa gücü təmsil edir və lətifələrdə tənqid olunan şəxs artıq ölüb gedib və onun zorakılığı, ədalətsizliyi başqa bir zaman və şəraitdə ortaya çıxa biləcək bir hadisə kimi qınanmalı və fərdi xarakter, konkret şəxs kimi deyil. Deməli, hadisəni toz-torpağa atmaq, basdırıb yerlə-yeksan etmək olmaz, amma hadisəyə nifrət etmək yad və insani hisslərə yaraşmaz.

*(davamı növbəti sayda)*

Müəllif: **Elizbar CAVELİDZE**
Gürcü dilindən tərcümə etdi:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

30 APREL
2024-CÜ İL
№ 08 (203)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## KVEMO KARTLİDƏ ƏHALİNİN SAYI 436 MİN NƏFƏRDİR



Milli Statistika Xidmətinin məlumatına görə, 2024-cü ilin 1 yanvarına olan vəziyyətə əsasən Gürcüstan əhalisinin 61 %-i şəhərlərdə yaşayır. Tbilisi şəhərinin əhalisi ümumi əhalinin üçdə birini təşkil edir.

*Regionlara görə əhalinin sayı aşağıdakı kimidir:*

• Tbilisi şəhəri – 1258 milyon;
• İmereti – 442 min;
• Kvemo Kartli – 436 min;
• Acara Muxtar Respublikası – 363 min;
• Kaxeti – 299 min;
• Sameqrelo-Zemo Svaneti – 287 min;
• Şida Kartli – 244 min;
• Samtsxe-Cavaxeti – 142 min;
• Quriya – 101 min;
• Raça-Leçxumi və Kvemo Svaneti – 26 min.

Milli Statistika Xidmətinin göstəricilərinə görə, 2024-cü ilin 1 yanvarına olan vəziyyətə əsasən Gürcüstan əhalisinin sayı 3 694 600 nəfər təşkil edib. Bu isə ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,1 % azdır.

Məlumatda həmçinin Gürcüstanda gözlənilən ömür uzunluğunun 75 yaşa qədər artdığı da qeyd edilib.

Bildirilib ki, 2023-cü ildə ötən illə müqayisədə bu rəqəm 1,3 vahid artaraq 75 yaşa çatıb. Ömür uzunluğu kişilər üçün 70,6 yaş, qadınlar üçün isə 79,4 yaş təşkil edib.

Əhalinin əmək qabiliyyətli yaş həddi 15-64 yaş təşkil edib ki, bu da ümumi əhalinin 64,3 faizi deməkdir.

Ölkə əhalisinin 19,5 faizi 0-14 yaş arasında, 64,3 faizi 15-64 yaşında, 16,2 faizi isə 65 yaşdan yuxarı olanlardır.

*Mənbə: bpn.ge*

## TBİLİSİDƏN BATUMİYƏ 3 SAAT 30 DƏQİQƏYƏ GETMƏK OLACAQ



Avtomobillə Tbilisidən Batumiyə səyahət etmək üçün 3 saat 30 dəqiqə lazım olacaq. Bu barədə Gürcüstan hökuməti məlumat yayıb. Bildirilib ki, Zestafoni dolama avtomobil yolunun istifadəyə verilməsi nəticəsində səyahət müddəti əhəmiyyətli dərəcədə qısaldılıb.

Qeyd olunub ki, Zestafoni dolama yolunun 9 kilometrlik Şorapani-Arqveta seksiyası Rikoti Keçidi magistral yolu layihəsi çərçivəsində açılıb. 4 tunel və 11 körpüyə malik dolama yolu keçmək üçün 6 dəqiqə lazım olacağı, bununla yol təhlükəsizliyi standartlarının və səyahət rahatlığının artırıldığı bildirilib.

Gürcüstan hökumətinin məlumatına görə, Rikoti Keçidi magistral yolunun 70 %-i artıq tamamlanıb. Asiya İnkişaf Bankının maliyyələşdirdiyi layihənin ümumi dəyəri 2,6 milyard laridir. Layihənin 2024-cü ilin sonunadək tamamlanması gözlənilir. 52 kilometrlik Rikoti Keçidi magistral yolu 97 körpüyə və 51 tunelə malik olacaq.

## EMİQRANTLARIN SAYI 62,2 % ARTIB – BU, SON 12 İLİN ƏN YÜKSƏK GÖSTƏRİCİSİDİR



Milli Statistika Xidmətinin məlumatına əsasən, 2023-cü ildə emiqrantların sayı 62,2 % artıb.

Məlumatda bildirilir ki, 2023-cü ildə Gürcüstandan emiqrantların sayı ümumilikdə 245 064 nəfər təşkil edib. Bu, 2012-ci ildən bu yana ən yüksək göstəricidir. Ümumiyyətlə, emiqrantların sayı 2022-ci illə müqayisədə 95,6 % artıb. 2022-ci ildə Gürcüstandan 125 269 nəfər emiqrasiya edib.

Qeyd etmək lazımdır ki, 2023-cü ildə emiqrantların əsas hissəsi – 66,7 %-i Gürcüstan vətəndaşı olub.

Milli Statistika Xidmətinin məlumatına görə, ötən il ölkədən 163 480 nəfər Gürcüstan vətəndaşı emiqrasiya edib. 2022-ci ildə bu göstərici 100 802 nəfər olub. Müvafiq olaraq, illik 62,2 %-lik artım var. 2022-ci illə müqayisədə 2023-cü ildə 62 678 nədər artıq Gürcüstan vətəndaşı emiqrasiya edib.

*Mənbə: bpn.ge*

## GÜRCÜSTANDA BUĞDA İSTEHSALI AZALIB



Milli Statistika Xidmətinin məlumatına əsasən, Gürcüstanda 2023-cü ildə 146,6 min ton buğda istehsal edilib, bu da 2022-ci illə müqayisədə 6,5 faiz azdır.

Məlumata görə, Gürcüstanda 2019-cu ildə 100,6 min ton, 2020-ci ildə 102,4 min ton, 2021-ci ildə 135,9 min ton, 2022-ci ildə 156 min ton buğda istehsal olunub. Lakin 2023-cü ildə buğda istehsalının həcmi 6,5 faiz azalaraq 146,6 min ton təşkil edib. Ötən il ölkədə buğda əkini sahələri 56,7 min hektar, hər hektardan orta məhsuldarlıq isə 26 sentner olub.

Gürcüstan ildə 700-800 min ton buğda istehlak edir. Ölkəyə buğda əsasən Qazaxıstan, Ukrayna, ABŞ və Rusiyadan idxal olunur. Xaricdən alınan məhsulun 70 faizi Rusiyanın payına düşür.

Buğda idxalının həcminin artması fonunda Gürcüstanın bütün un dəyirmanları ilin birinci rübündə istehsalı dayandırıb.

## GÜRCÜSTANIN XARİCİ TİCARƏT DÖVRİYYƏSİ 6,5 FAİZ AZALIB




2024-cü ilin yanvar-mart ayları ərzində Gürcüstanın xarici ticarət dövriyyəsi 4,7 milyard ABŞ dolları təşkil edib. Bu da 2023-cü ilin eyni dövrü ilə müqayisədə 6,5 faiz azdır. Bu barədə məlumat Gürcüstan Milli Statistika Xidmətinin hesabatında yer alıb.

Bildirilir ki, hesabat dövründə ölkəyə ötən ilin yanvar-mart aylarına nisbətən 5,3 faiz az – 3,4 milyard dollar dəyərində məhsul idxal olunub.

İxracın həcmi isə 9,3 faiz azalaraq 1,3 milyard dollar təşkil edib.

Beləliklə, Gürcüstanın xarici ticarət dövriyyəsində təxminən 2 milyard dollar həcmində mənfi saldo yaranıb.

**Təsisçi:**
**“Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı”**

**Redaktor:**
Azər MUSAOĞLU
**Yayım direktoru:**
Hacı BƏKİROĞLU
**Qrafik dizayn:**
Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.